*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2023, № 1*
*Səhifə: 177-183*
*https://doi.org/10.59849/2663-4406.2023.1.177*

*ISSN: 2663-4406*
*E-ISSN 2709-2699*

## MƏTBUAT TARİXİ

# Naxçıvan "Zükur" seminariyası və "Dan yıldızı" dərgisi

**Lütviyyə Əsgərzadə**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: asgerzadelutviyye@yahoo.com.tr

**Annotasiya.** XIX əsrin ikinci onilliyində, 1922-1924-cü illərdə Naxçıvanda iki seminariya – "Zükur" (erkək) və "Ünas" (qadın) fəaliyyətə başladı. Seminariyanın müəllimləri arasında Naxçıvan mühitinin möhtəbər şəxsiyyətlərindən olan, İranda təhsil alan dilşünaslıq müəllimi Şeyx Məhəmməd Rasizadə bu proseslərin tam mərkəzində olmuşdur. Təcrübəli pedaqoq texnikumda keçirilən proqrama dil dərslərinin salınmamasını və digər nöqsanları müşahidə etmiş, proqramın qeydsiz-şərtsiz "tələbələr üzərində təcrübə edilməsi"nə qarşı çıxmış, ədəbiyyat fənninin tədrisinin yaxşılaşdırılması haqqında təkliflər vermişdir. Məsələ, o dövrün Azərbaycan ictimai-pedaqoji mühitində geniş mübahisələrə və müzakirələrə səbəb olmuş, yararsız sayılaraq rədd edilmişdir. Verilən təkliflər Məhəmməd Rasizadənin pedaqoji biliyi və səriştəsi ilə seçilə bilən, pedaqoji yenilikləri izləyən və yenilikləri saf-çürük etməyi bacaran müəllim-pedaqoq olduğunun təsdiqidir.
Texnikumda nəşrə başlayan "Dan yıldızı" divar qəzetinin çıxarılmasında, yazılar yazılmasında xüsusi aktivlik göstərməsi Şeyx Məhəmməd Rasizadənin simasında texnikumun Naxçıvanda nəşr olunan mətbuat orqanları ilə geniş əlaqəsi olduğunu, müəllim və tələbələrin ictimai-siyasi, elmi-pedaqoji məqalə və yazıları ilə bu orqanlarda müntəzəm çap olunduğunu göstərir. Tanınmış, nüfuzlu, "ciddi, savadlı", "Türkcəmizə, müsəlman həyatına və düşüncəsinə" (dinimizə, dilimizə və tariximizə) dərindən bələd olan Şeyx Məhəmmməd Rasizadə "həqiqi millət müəllimi" olmuşdur.
Məqalədə, 30 ildən çox pedaqoji fəaliyyətlə məşğul olan Şeyx Məhəmməd Rasizadənin Naxçıvanda maarifin, mədəni mühitin canlanmasında və pedaqoji kadrların ilk dəstəsinin hazırlanmasındakı xidmətlərinə işıq tutulur.
**Açar sözlər:** Naxçıvanda təhsil, "Zükur" (erkək) və "Ünas" (qadın) seminariyaları, "Dan yıldızı" divar qəzeti, Şeyx Məhəmməd Rasizadə

**Məqalə tarixcəsi:** göndərilib – 23.11.2022; qəbul edilib – 05.12.2022

# The Nakhchivan "Zukur" seminary and the "Dan yildizi" magazine

**Lutviyya Asgarzade**
Doctor of Philological Sciences
Institute of Literature nameda after Nizami Ganjavi. Azerbaijan.
E-mail: asgerzadelutviyye@yahoo.com.tr

**Abstract.** In the second decade of the 19th century, in 1922-1924, two seminaries, "Zukur" (male) and "Unas" (female), began to operate in Nakhchivan. Among the teachers of the seminary, Sheikh

Muhammad Rasizadeh, a linguist teacher who studied in Iran and was one of the respected personalities of Nakhchivan environment, was at the very center of these processes. The experienced teacher observed lack of language lessons and other shortcomings in the program held at the technical school, opposed the "experiment on students", and made suggestions for improving the teaching of the subject of literature. The issue caused evtensive discussions in public-pedagogical environment of that time in Azerbaijan was rejected. The given suggestions confirm that Muhammad Rasizadeh is a teacher-educator who can be distinguished by his pedagogical knowledge and competence, follows pedagogical innovations and is able to analyze innovations.
The activity of Sheikh Muhammad in publishing and writing articles for the "Dan Yildizi" wall newspaper, which was published in the technical school, demonstrated that the technical school had deep relations with the press agencies in Nakhchivan, and the social-political, scientific-pedagogical articles by teachers and students had been regularly published in these bodies. Well-known, influential, "serious, well-educated", "Turkish, Muslim life and thought" (religion, language and history), Sheikh Muhammad Rasizadeh became a "true teacher of the nation".
The article sheds light on the services of Sheikh Muhammad Rasizadeh, who had been engaged in pedagogical activities for more than 30 years, in revitalizing the education and cultural environment in Nakhchivan and training the first batch of pedagogical personnel.
**Keywords:** education in Nakhchivan, "Zukur" (male) and "Unas" (female) seminaries, wall newspaper "Dan Yildizi", Sheikh Muhammad Rasizadeh

**Article history:** received – 23.11.2022; accepted – 05.12.2022

## Giriş / *Introduction*

XIX əsrdə Azərbaycanda yayılmış geniş maarifçilik hərəkatı Naxçıvanda ədəbiyyatın, mədəniyyətin və incəsənətin inkişaf etməsinə güclü zəmin yaratdı və Naxçıvan ədəbi mühitində ciddi canlanmaya səbəb oldu. "Maarifçilik hərəkatı baxımından inkişaf etmiş mərkəzlərdən biri olan Naxçıvanda" [9, s.3-4] "Əxtər" və "Tərbiyə" məktəbləri açılmış, "az sayda da olsa, müsəlman qızları dünyəvi təhsilə cəlb edilmişdir. Naxçıvanın görkəmli maarifçilərindən biri olan M.Kəngərli Qafqazda ilk dəfə olaraq "Leyli" qız məktəbini açaraq, məktəbi özü maliyyələşdirmişdir. Onun açdığı məktəb qızlar üçün gimnaziya statusuna malik olub, oranı bitirənlər universitetlərə daxil olmaq imkanı qazanmışlar. Digər məktəblər kimi, bu məktəbin də ömrü uzun olmamışdır. 1901-ci il sentyabrın 15-də fəaliyyətə başladıqdan düz bir il sonra İrəvan şəhərinə köçürülmüş və 1905-ci il iyunun 1-də bağlanmışdır" [4, s.169-171]. Rəşid bəy Əfəndiyev Naxçıvan şəhərində türk-qız məktəbi (1910) açaraq özü də orada dərs demişdir. Messenat H.Z.Tağıyevin qız məktəbinin məzunu Nazlı xanım Tahirova 1912-ci ildə Naxçıvan şəhərində qız məktəbinin təşkil edilməsinə nail olmuş, 1917-ci ildən 1920-ci ilədək Rəşid bəy Əfəndiyevin açdığı müsəlman-qız məktəbinin müdiri işləmişdir" [8, s.26]. Sonrakı dövrlərdə, xüsusən 1917-1920-ci illərdə bölgədə cərəyan edən mürəkkəb siyasi proseslər xalq maarifinə mənfi təsir göstərmiş, "onsuz da məhdud olan məktəblərin sayı azalmış, təhsil sistemi iflic vəziyyətinə düşmüşdür" [5, s.40-42]. Naxçıvanda təhsil və mədəniyyət, ayrı-ayrı maarifpərvər şəxslərin fədakarlığı sayəsində inkisaf etmişdir. Bölgələrdə müəllim kadrlarının çatışmaması Naxçıvanda maarifin inkişafını ləngidən əsas məsələlərdən biri idi.

## Əsas hissə / *Main Part*

XX əsrin ikinci onilliyindən etibarən Bakı, Gəncə, Quba, Tiflis və İrəvanda təhsil müəssisələri yaradılır. Respublikada artıq 1922-ci ildə 7 müəllimlər seminariyası fəaliyyət göstərirdi. Yaradılarkən tarixi təcrübəyə istinad edilmiş bu təhsil ocaqları, ilkin variantda seminariya kimi düşünülsə də, sonra pedaqoji texnikumlara çevrilmişdir (1925-1926). "Naxçıvanda da Müəllimlər Seminariyasının açılması həmin illərə təsadüf edir" [15, s.2]. Bütövlükdə, 1920-ci ildən sonra Azərbaycanda pedaqoji kadr hazırlığının yeni mərhələsi başlanır. 28-30 avqust 1922-ci ildə keçirilmiş Azərbaycan Müəllimlər Qurultayının Naxçıvanda müəllim kadrlarının hazırlanmasında mühüm rolu olmuşdur. Naxçıvan maarifi qarşısında duran vəzifələr, müəllimlərin maddi vəziyyəti, gənc nəslin sosial tərbiyəsi, qızların təhsili, tədris proqramları kimi məsələlər qurultayda geniş müzakirə edilir və məktəblərin vəziyyəti, müəllimlərin ixtisaslarının artırılması və s. məsələlər üzrə təkliflər hazırlanaraq hökumət orqanlarına göndərilir. Alınan qərara əsasən, müəllim kadrlara olan ehtiyac nəzərə alınır və Naxçıvan şəhərində Müəllimlər Seminariyası təsis edilir (noyabr 1922) və seminariyaya müdir Xəlilağa Hacılarov, müdir müavini Əbdüləzim Rüstəmov təyin edilir. 1923-1924-cü tədris ilində seminariya Naxçıvan Pedaqoji Texnikumuna çevrilərək Ordubad şəhərində fəaliyyət göstərməyə başlayır. Texnikumda pedaqoji şura, metodiki təşkilatlar, tələbə komitəsi, müxtəlif fənn dərnəkləri yaradılır.

Az sonra Naxçıvanda Qadın seminariyası fəaliyyətə başlayır (oktyabr 1924). Seminariyaya N.Nəcəfova rəhbərlik edir. Qadın seminariyası 1925-1926-ci tədris ilində Qadın Pedaqoji Texnikumuna çevrilmişdir. 1926-1927-ci tədris ilindən başlayaraq "Naxçıvan Muxtar Respublikasında bəzi məktəblərdə qızlar oğlanlarla birgə oxumağa başlamışdır. Qızların məktəblərə cəlb edilməsində 1927-ci ilin iyulunda Naxçıvan VPK-nın müvafiq qərarı mühüm rol oynamışdı [4, s.12]. 1927-1928-ci tədris ilində Naxçıvanda 140 nəfər türk müəllim (onlardan 8 nəfəri qadın) maarifçilik fəaliyyəti ilə məşğul olmuşdur. Bu tədris ilində kişi və qadın texnikumları birləşdirilmişdir ki, bu da müəllim kadrların hazırlanmasının keyfiyyətcə yaxınlaşdırılmasına səbəb olmuşdur.

Beləliklə, bu illərdə Naxçıvan Muxtar Respublikasında "Ünas" (qadın) və "Zükur" (erkək) seminariyaları fəaliyyət göstərirdi. "Ünas" və "Zükur" Seminariyalarının müəllimləri arasında Xədicə Yusifbəyli, Şövkət Mahmudbəyova, Sabirə Güləhmədova, Məhəmməd Rasizadə, Həsən Səfərov, Əbdüləzim Rüstəmov, Həsən Qaziyev, İbrahimxəlil Axundov, Əli Xəlilov və başqaları var idi. Naxçıvan mühitinin möhtəbər şəxsiyyətlərindən olan Şeyx Məhəmməd Rasizadə Naxçıvanda gedən bu proseslərin tam mərkəzində idi [6, s.43].

Şeyx Məhəmməd Rasizadənin dərs dediyi "Naxçıvan Zükur Pedaqoji Seminariyası" 1922-ci ilin noyabr ayının 10-da o zaman Naxçıvanda fəaliyyət göstərən məşhur "Ünas" (qız) məktəbinin binasında" [14, s.2] fəaliyyətə başlayır.

1924-1925-ci tədris ilində seminariyanın fəaliyyəti dayanır. Seminariyanın bazası əsasında Ordubad şəhərində də belə bir təhsil ocağı yaradılır və 90 tələbə Ordubad Pedaqoji Texnikumuna köçürülür. Səbəbi isə belə izah edilir: "1924-25-ci tədris sənəsində Ordubadda darülmüəllimlinə yarar kabinə (bina) olduğu və havasının çocuqlara müsaid (əlverişli) bulunduğunu nəzərə alınaraq məhəlli təşkilatlar darülmüəllimin Naxçıvandan Ordubada köçürülməsini qərara aldılar" [14, s.32-34]. "Əlbəttə, heç bir ehtiyac olmadan texnikumu parçalamaq, təhsil işlərində ləngilk yaradır, maddi təchizat məsələlərini xeyli çətinləşdirir. Qabaqcıl maarif xadimlərinin təkid və tələbi ilə Azərbaycan Xalq Maarif Komissarlığı bu iki məktəbi "Naxçıvan Zükur Pedaqoji Texnikumu" adı altında birləşdirir [14, s.33-34]. Yəni texnikum Ordubadda cəmi bir il fəaliyyət göstərir.

Beləcə, Naxçıvan Pedaqoji Texnikumu yaranır. Rəhbərlik yenə Xəlilağa Hacılarova tapşırılır. Pedaqoji heyəti isə Naxçıvanda geniş maarifçilik fəaliyyəti ilə tanınan müəllimlərdən Həsən Səfərli, İbrahimxəlil Axundov, Əli Xəlilov, Məhəmməd Rasizadə, Mirzə Nəsrullah Əmirov, Murad Tutayuk və s. təşkil olunur. Müəllimlərin siyahısında İranda təhsil alan dilşünaslıq müəllimi Məhəmməd Rasizadənin, Yerevan Müəllimlər Seminariyasını bitirən riyaziyyat müəllimi Həsən Səfərovun, inqilaba qədər Naxçıvan ali-ibtidai məktəbdə təhsil alan tarix və coğrafiya müəllimi Əbdüləzim Rüstəmovun, sənət məktəbinin məzunu, rəsm müəllimi Əli Xəlilovun, hərbi kursları bitirən bədən-tərbiyəsi müəllimi Muxtar Fərəcovun adlarını çəkmək olar. 1926-27-ci təhsil ilində "Zükur" texnikumunun 18 müəllimdən ibarət ilk məzunu olmuş və onlar muxtar respublikanın məktəblərinə paylanmışdır.

20-ci illərin ziddiyyətli və mürəkkəb inkişaf prosesləri bu təhsil ocağına da təsirsiz qalmamış, "Oktyabr inqilabından sonrakı ilk illərdə başqa sahələrdə olduğu kimi, təhsil və maarifin bütün sistemini yenidən (bolşevikcəsinə) qurmaq işinə başlandı. Bu da bir sıra metodoloji səhvlərə gətirib çıxarırdı. Keçmişlə qarşılıqlı əlaqəni pozmaq, ona hakimlik etmək, onu müasir şəraitə süni

şəkildə "uyğunlaşdırmaqla" məşğul olmaq kimi yolverilməz hallar baş qaldırmış, tədris planı və proqramlarının tez-tez dəyişilməsi və məcburi olmaması tədrisin keyfiyyətini xeyli aşağı salmışdı" [14, s.32-34]. Dərslik və tədris vəsaitlərinin yox dərəcəsində olduğu bir zamanda fəaliyyətə başlayan Naxçıvan Zükur Pedaqoji Texnikumu təlim-tərbiyə işlərində də bir sıra çətinliklərlə üzləşmişdi. "Texnikumun ədəbiyyat müəllimləri Məhəmməd Rasizadə və Qəzənfər Hacılının "Türkcə dərslərin gedişi" adlı yazısından aydın olur ki, dördüncü sinifdə oxuyan uşaqlar bütün təhsil müddəti ərzində üç proqram əsasında dərs keçməli idi və keçirilən birinci proqram Oktyabr inqilabının ilk ilində Rusiya məktəbləri üçün hazırlanmışdı. Proqramda klassik ədəbiyyatın tədrisi geniş şəkildə nəzərdə tutulsa da, dil dərsləri keçirilmirdi. Təcrübəli pedaqoq Məhəmməd Rasizadə və Qəzənfər Hacılı proqramdakı nöqsanları müşahidə edir. Onun qeydsiz-şərtsiz "tələbələr üzərində təcrübə edilməsi"nə qarşı çıxırlar. "İkinci proqramda məşhur təlim qaydası-məlumdan məchula getmək yolu əsas götürülərək əvvəlcə müasir ədəbiyyatın tədrisindən başlayıb türklərin islamiyyətdən əvvəlki ədəbiyyatına doğru getmək nəzərdə tutulurdu. Məktəbin dil-ədəbiyyat müəllimləri Məhəmməd Rasizadə və Qəzənfər Hacılının sayəsində bu məsələ də o dövrün Azərbaycan ictimai-pedaqoji mühitində geniş mübahisələrə və müzakirələrə səbəb olur, yarasız sayılaraq rədd edilir. Müəlliflərin proqram haqqında bir qeydində yazılır: "Proqramın naqis tərəfi ondadır ki, ancaq osmanlı şivəsində vücuda gələn türk ədəbiyyatı ilə Azərbaycan türkcəsində olan ədəbi parçalar" saxlanmışdır. Müəllimlər, hər iki ədəbiyyatın mütərəqqi əsasda inkişafına Qərb və rus ədəbiyyatının təsirisiz qalmadığını və tələbələrin dünya ədəbiyyatı ilə tanışlığının lüzumsuz olması fikri ilə razılaşmırdı. Məqalədə həmçinin Məhəmməd Rasizadə və Qəzənfər Hacılının ədəbiyyat fənninin tədrisinin yaxşılaşdırılması haqqında təklifləri də verilir. Verilən təkliflər Məhəmməd Rasizadə və Qəzənfər Hacılının pedaqoji biliyi və səriştəsi ilə seçilə bilən, pedaqoji yenilikləri izləyən və bu yenilikləri saf-çürük etməyi bacaran müəllim-pedaqoq olduğunu təsdiqləyir" [14, s.32].

Tədris planına pedaqogika və didaktika, riyaziyyat, kimya, coğrafiya, təbiət, psixologiya, hikmət, ictimaiyyət, ədəbiyyat və dil, rus dili, bədən tərbiyəsi, musiqi, rəsm və başqa bu kimi fənlər daxil texnikumda ədəbiyyat, riyaziyyat, təbiət, dram dərnəkləri və bədən tərbiyəsi üzrə müxtəlif idman bölmələri də fəaliyyət göstərirdi. Kütləviliyi ilə seçilən fənn dərnəklərində qoyulan məsələlər ətrafında mübahisə və müzakirələr aparılır və bu müzakirələr faydalı olurdu. Yalnız texnikumun pedaqoji kollektivi deyil, şəhərin "Ünas" və təsərrüfat texnikumlarının müəllim və tələbələri, həmçinin bir və iki dərəcəli məktəblərin müəllimləri də müntəzəm olaraq iştirak edirdilər. Dərnəklər, əsasən şəhər ziyalılarının yığıncaq yerinə çevrilmişdi. Texnikumda nəşr olunan "Dan yıldızı" qəzetində tənqidi yazılar ağırlıq təşkil edirdi.

1923-cü ildə texnikumda siyasi məqsədli ilk gənclər özəyi yaradılır. Özəyin yaradılmasında əsas məqsəd savadsızlığın aradan qaldırılması, tələbə komitəsinin işinə nəzarət olunması idi. Texnikumda 1924-1925-ci tədris ilindən başlayaraq "Dan yıldızı" adlı divar qəzeti nəşrə başlayır. Tənqidi məqalələr ağırlıq təşkil edən qəzet mətbəədə yığılır və şəkillərdən istifadə olunurdu. Ayda 2 dəfə nəşr olunan "Dan yıldızı" divar qəzetinin çıxarılmasında və yazılar yazılmasında görkəmli maarifpərvər Şeyx Məhəmməd Rasizadə xüsusi aktivlik göstərir. Şeyx Məhəmmədin 1925-ci ildə "Şərq qapısı" qəzetində çap edilən "Dan yıldızı haqqında" başlıqlı yazısında texnikumda çıxarılan divar qəzetindən bəhs olunur və 7 bənddən ibarət nöqsanlar göstərilir [3, s.3]. Qəzetin növbəti sayında "Dan yıldızı" divar qəzetinə yazılan tənqidə bənd-bənd cavab verir [11, s.3]. Yenə həmin ildə Şeyx Məhəmməd Rasizadənin "Əczaxana lazımdır (əczaxanalar da yaratmaq lazımdır ki, əhali rahat olsun) adlı yazısı yayınlanır [12, s.3]. Bütün bunlar, Şeyx Məhəmməd Rasizadənin simasında texnikumun Naxçıvanda nəşr olunan mətbuat orqanları ilə geniş əlaqəsi olduğunu, müəllim və tələbələrin ictimai-siyasi, elmi-pedaqoji məqalə və yazıları ilə bu orqanlarda müntəzəm çap olunduğunu izləmək mümkündür.

Ümumiyyətlə, Şeyx Məhəmməd Rasizadənin Naxçıvanda maarifin və pedaqoji kadrların ilk dəstəsinin hazırlanmasında xidmətləri əvəzsizdir. Bütün tələbələrinə ürəkdən bağlanan, elmlə yanaşı, onlara bir ata nəvazişi ilə yanaşan, ciddi, ciddi olduğu qədər də tələbələrinə qarşı diqqətli olan Şeyx Məhəmməd Rasizadə, tələbəsi Cavad Şərifin ölümünə (Əziz Şərifin qardaşı) "R.M" imzası ilə həsr etdiyi "Hörmətli Əziz Şərifə Cavad Şərif üçün" adlı şeirində üzüntüsünü ifadə etmişdir.





Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivində qorunan bir sənəddə Şeyx Məhəmmədin 1901-ci ildə (1917-ci il olmalı) İrəvan şəhərində komissiya qarşısında imtahan verib müəllimlik şəhadətnaməsi almasından [15, s.10], 1906-cı ildən Naxçıvanda pedaqoji fəaliyyətlə məşğul olmasından, 1920-ci ildə Naxçıvan şəhər Xeyriyyə ibtidai məktəbinə müdir təyin olunmasından [16, s.7], bəzi mənbələrdə isə [19, *s.93*] ***Şeyx Məhəmmədin 1906-cı ildə Naxçıvanda "Üsuli-cədid" (xeyriyyə) məktəbini bitirməsindən bəhs olunur. Əslində, Şeyx Məhəmməd "Üsuli-cədid" (xeyriyyə) məktəbini bitirməmişdir.*** 1906-cı ildən Naxçıvanda ***"Üsuli-cədid"*** məktəbinin ("Məktəbi-xeyriyyə") yaradıcılarından biri kimi pedaqoji fəaliyyətə başlamışdır. Pedoqoji fəaliyyətə başlamasından xeyli sonra, 1917-ci ildə İrəvan Maarif idarəsində ***kurs bitirmiş, pedoqoji fəaliyyətinə davam etmişdir.*** "1920-ci ildə Naxçıvan şəhər Xeyriyyə ibtidai məktəbinə müdir təyin olunması" [16, s.7] məsələsinə gəlincə, bu mümkündür. Lakin bu çox az müddət olduğundan o dövrün sənədlərində geniş əks olunmayıb. 1922-ci ildən Naxçıvan Müəllimlər Seminariyasında (1924-1925-ci tədris ilindən Pedaqoji Texnikumda), Kənd Təsərrüfatı Texnikumunda Azərbaycan dili və ədəbiyyat fənlərini tədris etmişdir.

Hüseyn Cavidin tədqiqatçıları, akademik Məmməd Cəfər Cəfərovdan başlayaraq [2], Əli Sultanlı [22], Rafael Hüseynov [19], Cavid ocağının ləyaqətli varisi Azər Turan [22] və bəndənizin [1,s.174] tədqiqatlarında Şeyx Məhəmməd Rasizadənin həyatı və fəaliyyəti müəyyən rakurslardan araşdırılıb.

Şeyx Məhəmməd Rasizadənin XIX sonu – XX əsrin əvvəllərində Azərbaycanda maarifçiliyin inkisafında, Naxçıvanada mədəni mühitin canlanmasında, yerli ziyalı kadrları formalaşmasında, maarif və mədəniyyətin səviyyəsinin artırılmasında mühüm xidmətləri olmuşdur. Maarifpərvər Şeyx Məhəmməd Rasizadənin fəaliyyət göstərdiyi yüksək təhsil ənənələrinə malik olan texnikum sonralar Naxçıvanda fəaliyyət göstərən ikiillik Müəllimlər İnstitutunun, Naxçıvan Dövlət Pedaqoji İnstitutunun (Naxçıvan Dövlət Universitetinin) layiqli sələfidir.

Cəmi 61 yaş yaşayıb, müqəddəs müəllimliklə məşğul olan, insanları maarifə, mədəniyyətə, elmə, təhsilə səsləyən Şeyx Məhəmməd Rasizadəni bizdən vəfatından sonrakı 83 illik zaman kəsimi ayırsa da, bu müqəddəs və möhtəbər insandan elmi və ədəbi fəaliyyəti ilə yanaşı, gözəl, xoş xatirələr də qalıb. Şeyx Məhəmmədin adı dərs dediyi tələbələrin yaddaşında əbədilik həkk olunub [7].

Tədqiqatçı N.K.Smirnovun "Материалы по истории и этнографии Нахичеванского края" kitabına geniş, on beş səhifəlik "Ön söz" yazan professor Əziz Mirəhmədov Şeyx Məhəmməd Rasizadədədən bəhs edərkən onun "Müəllimlər müəllimi" adlandıraraq yazır: "К.Н.Смирнов с благодарностью отмечает помош Мухаммед Расизаде ему в собирании материалов настоящей книги. Кстати М.Расизаде был педагогом моего учителя, нашего видного ученого-филолога академика М.Дж.Джафарова, автора монографии "Гусейн Джавид" (Tərcümə: Məhəmməd Rasizadə mənim müəllimimin müəllimi olubdur, bizim görkəmli alim-filoloq, akademik "Hüseyn Cavid" monoqrafiyasının müəllifi M.C.Cəfərovun" [10, s.11]. K.N.Smirnov isə kitabın materiallarının yığılmasında ona kömək edən Şeyx Məhəmməd Rasizadəyə təşəkkür edir.

30 ildən çox Naxçıvanda pedaqoji fəaliyyətlə məşğul olan (1906-1937), bölgənin tanınmış, nüfuzlu, ötkəm pedaqoqlarından Şeyx Məhəmməd, Pedaqoji və Kənd təsərrüfatı texnikumlarında bir sıra görkəmli şəxsiyyətlərin müəllimi olub.

Şeyxin müəllimliyi tələbəsi, dünya şöhrətli siyasi lider Heydər Əliyev tərəfindən belə dəyərləndirilir: "ötkəm, ciddi, savadlı".

**Nəticə / *Conclusion***

M.Ə.Rəsulzadə yazırdı: "Həqiqi millət müəllimi o kəslər ola bilər ki, onlar türkcədən – ana dilindən az-çox məlumatlı və müsəlman həyatına və düşüncəsinə bir az da olsa, bələd olsun" [13].

"Türkcəmizə, müsəlman həyatına və düşüncəsinə" dərindən bələd olan, hansı sənətdə olursa olsun (müəllim, şair, jurnalist), hər şeydən öncə öz vətənini sevən əsl vətəndaş olan Şeyx Məhəmmməd Rasizadə "həqiqi millət müəllimi" idi.

**Ədəbiyyat / *References***


1. Asgerzade, L. Sovyet`ler Birliği ve Şeyh`ler (Şeyh Muhammed Rasizade) / III Uluslararası Şeyh Şaban Veli sempozyumu / Kastamonu, Truva yayınevi, 2016.
2. Cəfərov, M. Hüseyn Cavid. – Bakı: Azərnəşr. 1960.
3. "Dan yıldızı" haqqında / – "Şərq qapısı" qəz., 1925, № 12.
4. Джафаров, Г. Деятелност комсомола Азербайджана по воспитанию моледежи на революционных, боевых и трудовых традициях коммунистической партии и советского народа (по материалам Нахчыванской АССR). 1966-1975 гг. Дисс… канд.ист.наук. – Баку,1987.
5. Əhmədov, H. XIX əsr Azərbaycan məktəbi. – Bakı: Elm, 1965.
6. Əsgərzadə, L. "Elm, din, mənəviyyat üçbucağında Şeyx Məhəmməd Rasizadə" // AMEA Filologiya və sənətşünaslıq, 2022, №3.
7. Əsgərzadə, L. Fani ikən əbədi olanlar: Şeyx Məhəmməd Rasizadə / "Ədəbiyyat qəzeti", 29.06.2022.
8. Həbibbəyli, İ. Ön söz. Məhəmməd Tağı Sidqinin həyatı və ədəbi-pedaqoji fəaliyyəti. / M.T.Sidqi. Əsərləri. – Bakı: Çaşıoğlu, 2004.
9. Həbibbəyli, İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. – Bakı: Nurlan, 1997.
10. Мирагмедов, А. Забытый, но ценный научный труд по истории Нахчывана / / Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. – Баку: Озан, 1999.
11. Rasizadə, M. Cavab / "Şərq qapısı" qəz., 1925, № 13.
12. Rasizadə, M. Əczaxana lazımdır / "Şərq qapısı" qəz.,1925, № 19.
13. Rəsulzadə, M.Ə. Yenə darülmüəllimin həqqində / "İqbal" qəz., 15 aprel 1915, № 19.
14. Rzayev, V. Naxçıvanda müəllim kadrları hazırlayan ilk təhsil ocağı / Naxçıvan Dövlət Universiteti. / Elmi əsərlər, 2019, № 1.
15. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi, F. 1. s. 2, iş 40, 30 v.
16. Naxçıvan Muxtar Respublıkasının Dövlət Arxivi, f.26, s.1, iş 30/31, 44 v.
17. Naxçıvan Zükur Pedaqoji Texnikumu. – Naxçıvan, 1927.
18. Нифталиев, М. Культурное строителство в Нахчыванской АССR. – Баку, 1964.
19. Hüseynov, R. Əbədi Cavid. – Bakı: Nurlan, 2007.
20. Seyid, S. "Şərq qapısı" qəzeti və Naxçıvanda ədəbi mühit. – Bakı: Elm və təhsil, 2010.
21. Sultanlı, Ə. "Hüseyn Cavid faciələri" // "Azərbaycan" jurn., 1969, №-7.
22. Turan, A. Cavidnamə. – Bakı: Avrasiya-Press, 2010.


## Нахчыванская семинария "Зюкур" и газета "Дан йылдызы"


**Лютвия Аскерзаде**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: asgerzadelutviyye@yahoo.com.tr



**Резюме.** Во втором десятилетии XIX века, в 1922-1924 годах в Нахчыване начали свою деятельность две семинарии: "Зюкур" (мужская) и "Унас" (женская). В центре этих процессов в ряду учителей семинарии был пользующийся особым уважением в Нахчыванской среде, учитель языкознания Шейх Мухаммед Расизаде, получивший образование в Иране. Опытный педагог обратил внимание на отсутствие в программе техникума уроков по языку и другие недостатки, выступал против безосновательного "проведения опытов над учащимися", выдвигал предложения по улучшению обучения по специальности "литература". Этот вопрос, вызвавший много споров и обсуждений в общественно-педагогической среде Азербайджана того времени, был отвергнут и признан бесполезным. Эти новшества и предложения являются подтверждением признания Мухаммеда Расизаде как знающего педагога, умелого организатора, отслеживающего и подвергающего тщательному разбору все нововведения в педагогике.

Широкое активное участие в написании материалов для начавшей издаваться в техникуме регулярной стенной газеты "Дан йылдызы" является свидетельством широкой связи техникума в лице Шейха Мухаммеда Расизаде с издаваемыми в Нахчыване печатными органами, в которых регулярно печатались общественно-политические и научно-педагогические статьи педагогов и студентов техникума. Известный, влиятельный, всерьёз образованный, глубоко знающий "турецкий-азери, мусульманскую жизнь и мышление" (нашу религию, родной язык и историю) Шейх Мухаммед Расизаде в действительности был "народным учителем".

В статье освещены заслуги Шейха Мухаммеда Расизаде, более 30-лет занимавшегося педагогической деятельностью, внесшего живительную струю в просвещение, культурную среду Нахчывана, в подготовке первых педагогических кадров.



**Ключевые слова:** образование в Нахчывани, семинарии "Зюкур" (мужская) и "Унас" (женская), стенная газета "Дан йылдызы" ("Заря"), Шейх Мухаммед Расизаде